Caspian Consulting

Sapphire Plaza 5th floor,
Nizami str.1/3, Baku Azerbaijan
Phone: (+994 12) 596 15 17/18
(+994 12) 499 85 82
Fax: (+994 12) 596 30 31
(+994 12) 499 85 81
E-mail: office@cc.baku.az
www.caspian-consulting.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "BAKI SIĞORTA" SIĞORTA ŞİRKƏTİNİN rəhbərliyinə

Biz, ASC "Bakı Sığorta" Sığorta Şirkətinin 31 dekabr 2014-cü il tarixinə olan dövr üzrə balans, maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat və balansa əlavədən ibarət olan maliyyə hesabatlarının və vergi bəyannamələrinin düzgünlüyünün auditini aparmışıq.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının və vergi bəyannamələrinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının və vergi bəyannamələrinin hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları və vergi bəyannamələri üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında və vergi bəyannamələrində əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında və vergi bəyannamələrində göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının və vergi bəyannamələrinin əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və Cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının və vergi bəyannamələrinin təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyim audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*

Bizim fikrimizcə, 31 dekabr 2014-cü il tarixinə Cəmiyyətin maliyyə hesabatları və vergi bəyannamələri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 29.03.2015-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə ikincisi isə Kaspian Konsaltinq Auditor Şirkətində saxlanılır.

**Kaspian Konsaltinq Auditor Şirkətinin Direktoru** **E.A. Abasov**

CASPIAN CONSULTING AUDIT COMPANY
KASPIAN KONSALTINQ AUDITOR ŞIRKƏTI
BAKI, AZƏRBAYCAN RESPUBLIKASI
BAKU, AZERBAIJAN REPUBLIC
KASPIAN KONSALTINQ AUDITOR ŞIRKƏTI

**Auditor** **E.T. Abdinova**